QARABAĞ AZƏRBAYCANDIR!



# MÜBARİZ KEŞİKDƏ

5 noyabr 2020-ci il
Cümə axşamı

№ 40 (3505)

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

www.mk.mia.gov.az - polisazerbaycan 1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# TARİXİMİZƏ ŞANLI SƏHİFƏLƏR YAZILIR

## Prezident İlham Əliyev: "Qarabağ sözü Azərbaycan sözüdür, erməni sözü deyil"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Almaniyanın "ARD" televiziya kanalına müsahibə verib.

Prezident almaniyalı jurnalistin "Kim birinci atəş açdı" sualını cavablandırarkən Ermənistanın artıq ardıcıl olaraq Azərbaycana qarşı üçüncü hərbi təxribatı nəticəsində ilk qurbanların məhz mülki şəxslər və hərbçilər olduğunu bildirib. Dövlət başçısı Ermənistan silahlı qüvvələrinin təmas xəttinə yaxın şəhər və kəndləri ağır artilleriya bombardmanına tutduqlarını, buna cavab olaraq da əks-hücum əməliyyatlarına başlanıldığını qeyd edib.

Humanitar atəşkəs rejiminin Ermənistan tərəfindən nümayişkəranə və kobud şəkildə pozulduğunu deyən Prezident İlham Əliyev Gəncəyə, Bərdəyə atılan ballistik, habelə kasetli raketlərin törətdiyi dağıntılardan, həlak olan sivil insanlardan, uşaqlardan söz açıb.



Ali Baş Komandan Azərbaycanın sülh tərəfdarı olduğunu, beynəlxalq prinsiplərə, qanunlara sadiq qaldığını bildirərək, bu günki reallığı nəzərə almaqla, danışıqlar masasına oturmağa hazır olduğumuzu, lakin Ermənistan tərəfinin bunu uzadaraq vaxt qazanmaq məqsədi güddüyünü vurğulayıb.

Müsahibə zamanı almaniyalı jurnalistin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualını cavablandıran ölkə rəhbəri Elzas və Lataringenin, Bavariyanın, Reyn-Vestfaliyanın onlar üçün hansı önəmin daşıdığını söyləyərək Dağlıq Qarabağın beynəlxalq səviyyədə tanınan Azərbaycan Respublikasının ərazisi, Azərbaycan xalqı üçün ədalət, milli qürur və beynəlxalq hüquq məsələsi olduğunu bildirib. Prezident beynəlxalq hüquq çərçivəsində beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını, BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrinin isə məhz 27 sentyabrdan sonra Azərbaycan Ordusu tərəfindən döyüş meydanında icra edildiyini bir daha diqqətə çatdırıb.

## Silahlı Qüvvələrə Yardım Fonduna nə qədər vəsait köçürülüb?

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il noyabrın 2-dək 198.013.034,48 AZN, 10.996.105,84 ABŞ dolları, 165.596,19 avro, 495.521,33 türk lirəsi, 1.294,72 ingilis funt sterlinqi və 5.062.550,00 rubl vəsait daxil olub.

Bu barədə məlumatı Müdafiə Nazirliyi yayıb.

Qeyd edək ki, oktyabrın 1-dən noyabrın 2-dək Silahlı Qüvvələrə Yardım Fonduna 77.906.626,24 AZN, 10.777.425,16 ABŞ dolları, 147.255,19 avro və 5.057.550,00 rubl vəsait daxil olub.

## "ASAN xidmət indeksi" üzrə nəticələr açıqlanıb

**Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində "ASAN xidmət indeksi" üzrə 2019-2020-ci il qiymətləndirmə nəticələrinə dair onlayn təqdimat keçirilib.**

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, 2019-2020-ci illər ərzində Dövlət Agentliyi tərəfindən 25 mərkəzi icra hakimiyyəti orqanının 270 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 229 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 55 xidməti daxil olmaqla, ümumilikdə 554 xidmət qiymətləndirilib.

Qiymətləndirilmənin keçirilməsində əsas məqsəd dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması və yeni növ xidmətlərin yaradılması yolu ilə bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi, xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılmasıdır.

## Daxili İşlər naziri səfiri qəbul etdi

**Respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Özbəkistan Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovu qəbul etmişdir.**

Qonağı salamlayan nazir təyinatı münasibətilə onu təbrik etmiş, fəaliyyəti müddətində Azərbaycan-Özbəkistan münasibətlərinin daha da dərinləşəcəyinə ümidvar olduğunu bildirmişdir.

Daha sonra nazir ölkəmizdə cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar barədə səfirə məlumat vermiş, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində qazanılan uğurlardan, əməliyyat şəraitinin



### Hüquqi bazanın mövcudluğu əməkdaşlıq üçün geniş imkanlar açır

tam nəzarət altında olduğundan danışmışdır. Bildirilmişdir ki, kriminogen durumun nəzarətə götürülməsi, sabitliyin etibarlı təmini ilk növbədə vətəndaşlarımızın, həmçinin əcnəbilərin təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb işləmələrinə əlverişli şərait yaratmışdır.

Nazir Vilayət Eyvazov imzalanmış bir sıra Sazişlərin hər iki ölkənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq üçün yaxşı imkanlar açdığını və cinayətkarlıqla birgə mübarizəni uğurlu təmin edən səviyyəyə çatdığını diqqətə çatdırmışdır.

Səfir Bahrom Aşrafxanov tanışlıq məqsədi daşıyan səmimi qəbula görə Daxili İşlər nazirinə öz minnətdarlığını bildirmiş, Azərbaycanın bütün sahələrdə sürətli inkişafından məmnun qaldığını nəzərə çatdıraraq ölkələrimizin xalqları və dövlətlərimizin müvafiq strukturları arasında əlaqələrin daha da genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini vurğulamışdır.

## Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasından ölkəmizə dəstək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edib.



Prezident İlham Əliyev Azərbaycanın hazırda Vətən müharibəsi apardığı bir dönəmdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının toplantısının Bakıda keçirilməsinin ölkəmiz üçün əlamətdar hadisə olduğunu, həm də ölkəmizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul etdiyini deyib.

Göstərilən dəstəyə görə Türkiyə Respublikasının Prezidentinə, Pakistan, Əfqanıstan və digər dövlətlərin dövlət və hökumət başçılarına minnətdarlığını bildirən dövlət başçısı Qoşulmama Hərəkatının və İslam Əməkdaşlıq Təşkilatının da dəstəyini xüsusi vurğulayıb.

Dövlət başçısı işğal edilmiş ərazilərdə tarixi, dini abidələrimizin dağıdıldığını, təhqir edildiyini iştirakçıların diqqətinə çatdırıb.

Ermənistanın mülki əhalini atəşə tutmasından, qadağan olunmuş raketlərdən istifadə etməsindən danışan Prezident İlham Əliyev Gəncənin, Bərdənin raketlərdən atəşə tutulmasını, mülki əhalinin, uşaqların həlak olduğunu bildirib.

Sonra çıxış edənlər təmsil etdikləri ölkələrin Azərbaycanla həmrəy olduqlarını bir daha ifadə ediblər.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələlər, döyüş bölgəsində vəziyyət müzakirə edilib.

## Türkiyə-Azərbaycan birliyi sarsılmazdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Türkiyənin hər zaman olduğu kimi Vətən müharibəsinin başladığı ilk saatlardan Azərbaycanın yanında olmasını, mənəvi dəstəyini yüksək qiymətləndirib, Türkiyə xalqına və Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

Türkiyənin keçmiş Baş Naziri Binəli Yıldırım ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını xatırladaraq Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqq yolunda olduğunu, Ermənistan tərəfindən işğal olunmuş torpaqların tezliklə işğalçılardan azad ediləcəyinə sayılı günlərin qaldığını deyib.

# Şəhidlərin də, şahidlərin də arzusudur Qələbə...





Torpağa çadırlar "əkiləndə" şagird idim. Vətəni çadırlara köçürmüşdülər. Yurdundan, yuvasından pələsəng düşən ellər çadırlara pənah gətirmişdi. Sığınacaq idi, duracaq idi, daldalanacaq idi onlar. Dərdimiz kimi çadırların da kökü torpağın dərinliyinə işləyirdi. Bir çadırlıq, bir qəbirlik yeri vardı insanların…

Yazda yarpaqlayır, yayda qır kimi qaynayır, payızda yetimləşir, qışda kövrəkləşir, tənhalaşırdı çadırlar. Bir ata qoluydu, bir ana qucağıydı bu çadırlar. Üstündə ayparası da vardı, xaçı da. Dünyanın işinə baxın: torpağından zorla qovulanlara səmavi dinlərin simvollarını daşıyan, dünyaya sülh, əmin-amanlıq arzulayan təşkilatlar sahib çıxmaq, onları az da olsa ovundurmaq istəyirdilər.

Kaş ki, aypara da, xaçı da sülh, dostluq rəmzi bilənlər vaxtında görəydilər bu dəhşətləri, vaxtında qarşısını alaydılar bu tökülən qanların. Vaxtında...

O zaman elə düşünürdüm ki, çadırda yaşayanların ömrü də çadır kimi bu dünyadan köçürülüb o dünyada qurulur. İllər keçdikcə o çadırların yanında toy çadırları da quruldu, yas çadırları da...

*Hələ neçə ildi qalıb yerində,*
*Hələ neçə ildi kökü dərində*
*Çiçək də açacaq günün birində,*
*Ay Allah, bu çadır göyərir deyən.*

Xalqımızın günü o zaman göy əsgiyə büküldü ki, gur səsinin ahəngindən Kremlin divarları əsim-əsim əsən bir ər oğlunu, bir Vətən sevdalısını qara əllər qutsal görəvindən uzaqlaşdırdılar. İstəklərinə nail olub, ermənilə meydan verdilər və düyünü bu günə kimi çözülməyən böyük bir problemlə bizi üzbəüz qoydular. Beləcə, "yenidənqurma" ovçuları Azərbaycanı daxildəki davamçılarının öhdəsinə buraxdılar.

Ancaq canı çadırda, ürəyi Şuşada, Laçında, Kəlbəcərdə, Xocalıda olanların, bir sözlə, bütün Azərbaycan xalqının ümidi yalnız O idi. Ev-ev, çadır-çadır, kənd-kənd, şəhər-şəhər hər kəs onu səsləyirdi, hamının dilində bircə nida vardı: "Heydər baba, xalqı bu bəladan qurtar"...

Dünya bu xalqın dərdini ilk dəfə onun dilindən eşitdi. Həqiqətlər, gerçəklər ölkə-ölkə ayaq açdı, okeanın o tayında Azərbaycan deyiləndə təkcə neft ölkəsi yada düşmədi, həm də bir milyondan çox qaçqını, məcburi köçkünü, erməni təcavüzündən əziyyət çəkən bir ölkə canlandı gözlər önündə.

"Əsrin müqaviləsi"ndən sonra çadırların da üzünə gün düşdü, qara bəxti ağarmağa başladı. Və illər keçdi, adı qaldı o çadırların. Bu gün onların ilk salındığı yerlərdə qəsəbələr salınıb, yaşayış üçün hər cür şərait yaradılıb.

"Qızıldan çadır olsun, bircə qarış Vətən torpağında, ata yurdunda qurulan dəyənin yerini verməz",- deyənlər Horadizə quş qanadında getdilər. Sonra daha böyük köçümüz başladı. Cocuq Mərcanlı həsrətin, hicranın göynərtisinə, acısına elə bir məlhəm qoydu ki, onu yalnız yurd itirənlər və sonra yurda dönənlər yaxşı bilərlər.

Bu gün hər günümüz qələbə soraqlıdır. Bu gün hər birimiz ürəyimiz döyünə-döyünə, böyük bir coşqu ilə Ali Baş Komandanımızdan xoş müjdələr gözləyirik. Qarabağ düyününü çözməyin yalnız diplomatik yolla mümkün olduğunu deyənlərin də səsi kəsilib artıq. Doğulduğumuz, sahib olduğumuz torpağı yağıya yurd etməmək, bu ağrını gələcək nəsillərə yadigar qoymamaq üçün uğrunda döyüşüb şəhid oluruq, qazi oluruq. Ən əsası, döyüş meydanındakı möcüzələrimizlə dünyanı heyrətə gətiririk.

"Türkün tökülən qanları bihudə gedərmi",- deyən babalarımız haqlı imiş. Və bu gün qanımız bahasına azad etdiyimiz Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, bir sözlə, yenidən ayağımız dəyən Vətən torpaqları üçrəngli bayrağın kölgəsində necə də xoşbəxtdir, İlahi…

**P.S. Qıpçaq çölünün salamını Cıdır düzünə yetirməyimizə az qalıb.**

***Ya ölüm, ya olum, ya da ki heç nə,***
***Dur! deyəm gözümün yaşına bir gün.***
***Sancam ürəyimi bayraq yerinə,***
***Şuşa qalasının başına bir gün...***

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

## "MÜBARİZ KEŞİKDƏ" SƏNGƏRDƏDİR



Ordumuzun qələbə əzmini yüksəltmək məqsədilə təbliğat və təşviqat tədbirlərinin keçirilməsi vətəndaşlarımız tərəfindən də rəğbətlə qarşılanır. Çünki bu tədbirlər döyüşən əsgər və zabitlərin mənəvi-psixoloji durumuna müsbət təsir göstərir, qələbə əzmini, döyüş ruhunu daha da artırır.

Bugünlərdə "Mübariz keşikdə" qəzetinin redaksiyasına göndərilən şəkil bizi həm sevindirdi, həm də qürurlandırdı. Düşmənin demək olar ki, hər gün müxtəlif növ silahlardan atəşə tutduğu Tərtərimizi qoruyan igidimizin "Mübariz keşikdə" qəzetini oxuduğu yerdə çəkilmiş şəklini qəzetimizdə dərc etməyi özümüzə borc bilirik.

# Polislər təbrikə gəlmişdilər





**Bugünlərdə Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları gözəl bir təşəbbüsə imza atıblar. Onlar torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə yaralanan və Rayon Mərkəzi Xəstəxanasında müalicə alan əsgərlərimizə-Elməddin Əmiraslanova və Coşqun Quliyevə baş çəkiblər. Polislərin yaralı əsgərlərə sürprizi də olub. Doğum günü noyabr ayına təsadüf edən igidlərimizi həmkarlarımız üzərində Azərbaycan bayrağı həkk olunmuş tortla və digər qiymətli hədiyyələrlə sevindiriblər.**

# Media terroru: əsrin bəlası

**İstənilən mövzuda xəbərləri cəmiyyətə təqdim etməyin ən effektli yolu mediadır. Bəzi terrorçu qruplar bu gün qorxu hissini (dəhşət, narahatlıq) ictimai şüura manipulyasiya etmək üçün kütləvi informasiya vasitələrini təsir altına sala bilirlər. Bu üsuldan düşmənlərimiz iki əsrə yaxındır ki, məharətlə istifadə edirlər.**

Bu gün media ekspertləri müasir medianı terror aktlarının işıqlandırılmasındakı yanaşmasına görə haqlı tənqid edirlər. Etiraf edək ki, hər hansı media orqanı materiallar seçərkən ona aşağıdakı parametrlərə görə yanaşır: cəlbedicilik, yenilik, orijinallıq.

Rusiyanın Humanitar Elmlər fakültəsinin professoru, Ali İqtisadiyyat Məktəbinin Mədəniyyət Araşdırmaları Məktəbinin rəhbəri Vitaliy Kurennoy medianın hərbiləşdirildiyi qənaətindədir. "Sonar 2050" Tədqiqat və Analitik Mərkəzinin baş redaktoru Semyon Uralov isə leksikonumuza daxil olan media terrorizmini ictimai fəaliyyət sahəsi kimi qəbul edir.




## İnformasiya müharibəsində də düşməni məğlub edirik




Terrorizm-media əlaqələrinə terrorizm pəncərəsindən baxdıqda onun nüvəsində terrorizmin reklam və təxribat istəyinin dayandığını görürük. Və bu artıq sübut olunub ki, terror təşkilatları insanları qorxutmaq, dəhşətli duruma salmaq və çaxnaşma yaratmaq üçün mediadan yararlanırlar.

Yeri gəlmişkən, bu gün döyüş meydanında ciddi məğlubiyyətlə üzləşən Ermənistan müxtəlif dezinformasiyalar yayaraq vəziyyətdən mümkün qədər çıxmağa çalışır.

Qısa desək, dünyanı yalanlarına inandırmaqla məqsədinə çatmaq istəyən düşmən media resurslarından, sosial şəbəkələrdən və mobil operatorlardan maksimum faydalanır.

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# BİR ŞƏKLİN YADDAŞI...

**Bu şəkil Bərdədə çəkilib. Cansız cəsədlərlə yanaşı, dağıntılar altından çıxanlar fotoaparatın yaddaşında uzun illər "diri" qalacaq. O, əldən-ələ, nəsildən-nəsilə ötürülərək illər sonra dilə gətirə bilməyəcəyimiz faciəmizi danışacaq kar, kor və lal dünyaya…**

Qəlpə yarası almış bu kitaba və ömrü yarım qalmış körpənin ayaqqabısına baxanda adamın damarlarında qanı donur. Dünyanın sonu gəlib, yoxsa insanlığınmı!?

İllər öncə olduğu kimi, bu gün də düşmənimizin namərdliyinin, mənfurluğunun sübutudur bu. Yaşayıb-yaratmaq eşqiylə qəlbi döyünənləri, qansız-qadasız bir dünya arzulayanları, gözləri göylər kimi duru körpələri öldürməklə düşmən bir daha qəddarlığını, acımasızlığını, bir sözlə, bəşəriyyətə yağı kəsildiyini sübut etmiş oldu.

…Yarımçıq qalan talelər və puç olan arzular, xəyallar…

Bərdə döyüş meydanı deyildi və atılan raketlər ünvanı səhv salmamışdı.



## Bərdənin qisası döyüş meydanında alındı

Düşmən bilərəkdən mülki əhalini hədəfə almışdı.

Hərdən adama elə gəlir ki, erməni Tanrının yer üzünə qarğışıdı. Evində, isti ocağında insanları qətlə yetirmək, didərgin salmaq onların vərdişinə çevrilib artıq.

Bu kitab yaşamaqdan ötrü bir parça çörəyini min-bir əziyyətlə qazanmasına baxmayaraq, ürəyi həyat eşqi ilə, yaşamaq həvəsi ilə dolu insanların kitabı idi. Həyata, insanlığa məhəbbətlə, rəğbətlə yanaşanların kitabında isə kiminsə torpağını zəbt etmək, kiminsə gününü qaraltmaq, kiminsə ocağını söndürmək yazılmayıb. Axı, yaşamaq istəməyən yaşatmağı hardan biləcək?! …

Düşmənimizin kitabı yalanlarla və xəyanətlərlə doludur. Murdar xislətlərini xırdalayıblar öz kitablarında. Bir qızcığazın qanına susayıb onun qan itirib can verməsindən zövq alan zori balayanların kitabının bir adı var: Türkə nifrət! Azərbaycan əsgəri isə erməni əsilli qadını dağıntılar altından çıxarmaqla, vəhşi batıya əsl insanlıq nümunəsi göstərdi.

Gec-tez haqq öz yerini tapacaq! Bu Haqq savaşında canımız, qanımız bahasına olsa da qalib gələcəyik.

Biz yaşamaq və yaşatmaq istəyirik. Qarabağımızın hələ də işğal altında qalan ərazilərində bayrağımızın ucaldığını görməkdən ötrü…

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# Şahbuzdan baxanda Laçın görünür

Yurd yeri demiş, xatirimdədir ki, kəndimizdən 2-3 kilometr məsafədə təbiətin əsrarəngiz gözəlliyinə bələnmiş açıq bir sahə var idi. "Cəlilin yurdu" deyirdilər təbiətin bu bənzərsiz əl işinə. Həmişə məni bir sual düşündürürdü: bu dilbər güşənin adı niyə məhz "Cəlilin yurdu"dur?



Zaman keçdikcə anladım bunun səbəbini. Kəndimizdə bugünün özündə də yaxşı xatırladığım Cəlil adlı zəhmətkeş bir kişi var idi. Yaşasaydı, yaşı bəlkə də 100-ü çoxdan keçmişdi. Allah rəhmət eləsin! Cəlil kişi hər ilin yaz-yay aylarında o güllü-çiçəkli təbiət güşəsində çadır qurar, mal-qara saxlayar, Allahın verdiyi ömür payını yaşayardı. Kəndə bir də o vaxt qayıdardı ki, üzbəüzdəki "Şəvəkar" deyilən ərazi ağ örpəyə bürünərdi. Hamı da buranı Cəlil kişinin yurdu kimi tanıyardı.

Maraqlıdır, deməli, insan bir yerdə od qaladımı, bir yerə kül tökdümü, ora onun yurdu, məskəni olur. İndinin özündə də mənimlə eyni yaşda, bir az aşağı, bir az yuxarı olan həmkəndlilərimlə söhbət zamanı "Cəlilin yurdu" tərəfdə", "Cəlilin yurdu"nun aşağısında" deməklə yurdlarımızı unudulmağa, yaddan çıxmağa qoymuruq.

Laçının işğalından ötən 28 il ərzində heç unutmadım bu müqəddəs yurd yerini. Ömrünün gözəl anlarını yaşadığın, qız sevdiyin, könül verib-könül aldığın doğma yurdu necə unuda bilərsən? İllah da, adı Vətənlə qoşa çəkilən Ananı, arxa-dayaq bildiyin Atanı məhz orada son mənzilə yola salıb torpağa tapşırasan.

Ürəyimdə 28 illik bir həsrət var. 28 ildir o həsrət mənimlə bir yatıb, bir oyanır, işə gedib-gəlir, yol yoldaşım olur, baş-başa verib yaşayır... Çətindir, çətindən də çətin.

***Laçın... Dünyaya göz açdığım doğma diyar. Qayğısız uşaqlıq illərimin, dəlisov gəncliyimin keçdiyi müqəddəs yurd yeri – Vətən***

"Mübariz keşikdə"nin müxbiri olarkən anamız Azərbaycanı, ələlxüsus da onun ayrılmaz hissəsi olan Naxçıvanı qarış-qarış, oymaq-oymaq gəzib dolaşmışam. Məni ən çox özünə çəkən yaradanın özünəməxsus ecazkar bir məhəbbətlə xəlq etdiyi hüsnü gözəl Şahbuz olardı. Doymazdım Şahbuza getməkdən.

Bilirsiniz niyə? Çünki... Şahbuzdan baxanda Laçın görünürdü. "Mübariz keşikdə" qəzeti yazılarımın birini elə bu başlıqla da dərc etmişdi: "Şahbuzdan baxanda Laçın görünür". Eh, o qədər Şahbuzdan Laçın dağlarına baxıb köks ötürmüşəm ki...

İndi İlahinin qüdrətinə şükür! Laçın lap yaxından – Qubadlıdan, Səfiyandan görünür. "Mübariz keşikdə" qəzetinin redaktoru, polis polkovnik-leytenantı Hafiz Təmirovun təbirincə desək, laçın oğullar indi Laçında döyüşürlər.

Laçın Ermənistanı Dağlıq Qarabağla bağlayan qurşaqdır. Laçının müzəffər ordumuzun nəzarətinə keçməsi ilə Dağlıq Qarabağın nəfəsliyi bağlanmış olur. Bu gün Laçın və Şuşa döyüş meydanlarında kürək-kürəyə söykənmiş səngərlər kimidir. Birinin varlığı digərinin olmasıdır. Laçının işğaldan azad edilməsi həm də Şuşanın etibarlı müdafiə olunması deməkdir. Bu gün hər iki yurd yerimizdən qələbə soraqları gəlməkdədir. İnşallah Laçın və Şuşanın şanlı ordumuzun nəzarətinə keçməsi ilə erməni silahlı birləşmələri tam mühasirəyə düşəcək ki, bu da Qarabağdakı qondarma rejimin süqutu demək olacaq. Bunu rus nəşrləri, rusiyalı politoloqlar da deyirlər. Paşinyanın "Ermənistanı" rəzil durumdadır.

Laçın isə... Laçın bu gün onu darda qoymayacaq rəşadətli əsgərinə qucaq açıb. O əsgərinə ki, tələskənlik nümayiş etdirmir, təmkinlə, soyuqqanlılıqla hədəfə doğru irəliləyir.

Deyəsən, Laçın lap yaxından görünür axı...

*Rahib Qarayev,*
*Şəxsi Heyətlə İş İdarəsinin rəisi,*
*polis polkovniki*

# Polis veteranının filmi beynəlxalq festivalda




**Azərbaycanın tanınmış xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevdən bəhs edən "100 il şərəfli ömür" filmi Lissabonda "Heritales International Heritage" Film Festivalının finalçı sertifikatına layiq görülüb. Ekran əsəri festivalda, həmçinin Lissabondakı Lusofona Universitetində nümayiş olunub.**

Qeyd edək ki, bu festivala dünyanın fərqli mədəniyyətlərinin tanıdılması, mədəni irs tarixi mövzusunda çəkilmiş filmlər qəbul edilir.

**Ekran əsərinin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri, polis veteranı Cəlaləddin Qasımov** bildirib ki, filmin çəkilməsində əsas məqsəd Hacı Zeynalabdin Tağıyevi geniş coğrafiyada tanıtmaq, həm də onun timsalında ölkəmiz haqqında insanlara geniş məlumatlar verməkdir.

Polis veteranı ekran əsərinin gələcəkdə müxtəlif beynəlxalq festivallarda nümayişi haqqında da düşünür: "Ekran əsəri vasitəsilə azərbaycanlı milyonçunun ötən əsrin əvvəllərində xalqının inkişafı naminə gördüyü çoxsaylı işləri geniş auditoriyaya çatdırmaq bizim üçün faydalıdır. Bu, insanları faydalı işlər görməyə, gənc nəsildə vətənpərvərlik hisslərini daha da yüksəltməyə hesablanmış bir addımdır".

Ekran əsərində Hacı Zeynalabdin Tağıyevin Stalinlə görüşlərindən, Nobel qardaşlarının ən böyük rəqiblərindən birinin Hacı Zeynalabdin olmasına baxmayaraq, ata Nobelin hacıya böyük hörmətindən, onun reallaşdırdığı bütün xeyriyyə işlərində Nobel qardaşlarının iştirakından söhbət açılır. Həmçinin hacının Musa Nağıyevlə dostluğuna da filmdə xüsusi yer ayrılıb. Filmdə Bakıda XX əsrin əvvəllərində baş verən tarixi hadisələrə də toxunulur.

**Kursantlar "Alpaqut Turan Döyüşü Sənəti" üzrə "İdman ustalığına namizəd" dərəcəsinə layiq görülmüşlər**



# Polis Akademiyasından xəbər var

DİN Polis Akademiyasının "Fiziki hazırlıq" kafedrasının müəllimi, polis baş leytenantı Natiq Eminovun rəhbərliyi ilə III kurs kursantları Rəvan Bayramzadə, İsa Məmmədov və V kurs kursantı Yəhya Çerpanov 2019-cu və 2020-ci illər ərzində "Alpaqut Turan Döyüş" sənəti üzrə Respublika daxilində keçirilən yarışlarda, seminarlarda, beynəlxalq turnirlərdə və dünya çempionatlarında yüksək nailiyyətlər əldə etmişlər.

İdman uğurlarına görə gənc həmkarlarımız Gənclər və İdman Nazirliyinin təsnifat normativlərinə əsasən, Bakı Şəhəri İdman İdarəsinin müvafiq qərarı ilə "İdman ustalığına namizəd" dərəcəsinə layiq görülmüşlər.

Bununla əlaqədar, oktyabrın 23-də Polis Akademiyasında tədbir keçirilmişdir. Azərbaycan Alpaqut Federasiyasının prezidenti Qüdrət Nuriyev, "Alpaqut Turan Döyüş" sənətinin müəllifi Vasif Namazov, "Turan Oyunları" Komitəsinin prezidenti Fərid Əlizadə və Azərbaycan Alpaqut Federasiyasının vitse-prezidenti Rafiq Qasımov tərəfindən kursantlara "İdman ustalığına namizəd" dərəcəsi vəsiqələri təqdim olunmuşdur.

# Arxa cəbhədəki düşmən daha güclüdür



Daxili işlər orqanlarının əməkdaşları arxa cəbhədə həm ölkə ərazisində elan edilən hərbi vəziyyət, həm də ki, koronavirusla mübarizədə xidmətlərini yorulmadan davam etdirirlər.

İnfeksiyanın ölkə ərazisində yayılmasının qarşısının alınması məqsədilə elan edilən karantin rejimi qaydaları çərçivəsində polis əməkdaşları tərəfindən nəzarət-profilaktik tədbirlər daha da gücləndirilib.

***Vətəndaşlardan məsuliyyətli olmaq tələb olunur***

Bakıda və bölgələrdə polis əməkdaşlarından təşkil edilən mobil qruplar vasitəsi ilə sanitar-karantin qaydalarına əməl edilməsi daim nəzarətdə saxlanılır. Reydlər zamanı qapalı yerlərdə, ictimai nəqliyyatda, mağazalarda və iaşə obyektlərində polis əməkdaşları tərəfindən insanlar arasında profilaktik söhbətlər aparılaraq onlara sanitar-epidemioloji qaydalara əməl etməyin, sosial məsafənin təmin edilməsinin, eləcə tibbi maskadan istifadənin zəruriliyi barədə məlumatlar verilir. Paytaxtın demək olar ki, hər bir nöqtəsində, eləcə də mərkəzdən kənar bölgələrdə həyata keçirilən reydlərdə sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən, dəfələrlə edilən xəbərdarlıqlardan nəticə çıxarmayan şəxslər qanunvericiliyə uyğun olaraq, inzibati məsuliyyətə cəlb olunublar. Paytaxt, eləcə də digər rayon və şəhərlərdə karantin qaydalarına əməl olunmasını təmin etmək məqsədi ilə polis əməkdaşları tərəfindən nəzarət bundan sonra da mütəmadi olaraq davam etdiriləcək.








**Baş Cinayət Axtarışı İdarəsi və Yasamal RPİ 27-ci PB** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 800 manat, 10 min ABŞ dolları və 30 min manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş R.Ələkbərov saxlanılmışdır.

◆◆◆

**Dövlət Sərhəd Xidməti və Cəlilabad RPŞ** əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbirləri nəticəsində Qarğılı kəndi ərazisində kənd sakini C.İbiyevin idarə etdiyi "VAZ-2107" markalı avtomobildən 1,1 kiloqram tiryək və 193 qramdan artıq metamfetamin aşkar edilərək götürülmüşdür.

Davam etdirilən tədbirlərlə C.İbiyevin sərnişinləri olan 2 nəfərin də narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaları şübhə doğurduğundan saxlanılmışlar.

◆◆◆

**Nəsimi RPİ 19-cu PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 28-də rayon ərazisində 2 avtomobildən mobil telefon oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş A.Tahirov saxlanılmışdır.

◆◆◆

**Kəpəz RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 9-dan oktyabrın 9-dək olan müddətdə Gəncə şəhəri ərazisindəki evlərdən birinin damından su mühərriki, 3 avtomobildən isə pul, akkumulyator, maqnitofon oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş Q.Sadıqov saxlanılmışdır.

◆◆◆

**Kəpəz RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 25-dən oktyabrın 15-dək olan müddətdə Gəncə şəhəri ərazisindəki 3 evdən samovar, kondisioner, təmir-tikinti alətləri, 1 avtomobildən akkumulyator və A.Cəfərovanın velosipedini oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş O.Rzayev saxlanılmışdır.

◆◆◆

**Sabunçu RPİ 14-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 27-dən 31-dək olan müddətdə Maştağa qəsəbəsindəki Rabitə Xidmətinə məxsus 1378 manat dəyərində 80 metr yeraltı kabel oğurlamaqda şübhəli bilinən qəsəbə sakini Ə.Əliyev saxlanılmışdır.

Ətrafında aparılmış tədbirlərlə onun M.Mirəliyev küçəsindəki Rabitə Xidmətləri Mərkəzinə məxsus quyulardan 3500 manat dəyərində 224 metr kabel oğurlaması da müəyyən edilmişdir.

◆◆◆

**İmişli RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakinləri, əvvəllər məhkum olunmuşlar R.Şəmmədov və H.Qafurov saxlanılmışlar. Şəxsi axtarış zamanı R.Şəmmədovdan 450 qram, H.Qafurovdan isə 480 qram marixuana götürülmüşdür.

◆◆◆

**Kürdəmir RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Sığırlı kəndində yaşayan F.Nəbiyevin evindən 5 kiloqram 815 qram, E.Əmirovun evindən isə 4 kiloqram 790 qram marixuana aşkar edilərək götürülmüşdür.

# Həqiqət axtarışında: Erik Fayqlı tanıyırıqmı?

*Əvvəli ötən sayımızda.*

Azərbaycanla çox sıx dostluq əlaqələrində olması onun Vətənimizə, qədim tariximizə və zəngin etnoqrafik irsimizə olan sevgisinin aydın təcəssümü idi. O, Azərbaycan türklərinin və Azərbaycan xalqının dünyanın ən ədalətli və qonaqpərvər xalqlarından biri olduğunu dəfələrlə öz nitqlərində, ayrı-ayrı elmi-publisistik məqalələrində vurğulamışdır.



Yazdığı əsərlər ingilis, alman, fransız və rus dillərində yüksək tirajla nəşr olunmuşdur. O, yalançı "soyqırım" iddiaları ilə bir çox Almaniya universitetlərində elmi məruzələr söyləmişdir. Azərbaycan tarixindən bəhs edən "İpək Yolu Odlar Yurdundan keçərkən" kitabında xalqımızın müasir dünyadakı yeri və rolu, Azərbaycanın Qafqazda və dünyada geosiyasi və geostrateji əhəmiyyəti barədə fikirləri, qaçqın və məcburi köçkünlərin yaşayış məntəqələrində olarkən qələmə aldığı müşahidələri öz əksini tapmışdır. Bu kitab xarici ölkələrdə Azərbaycan haqqında obyektiv rəyin formalaşdırılması baxımından çox böyük əhəmiyyətə malikdir. Erik Fayql Azərbaycan diasporunun tədbirlərində həmişə yaxından iştirak etmiş, dəfələrlə ölkəmizdə səfərdə olmuşdur.

2000-ci ildə ümummilli liderimiz Heydər Əliyev Avstriyaya rəsmi səfərdə olarkən Erik Fayqlı Bakıya dəvət etmişdir.

O, Bakıda 2001-ci ilin noyabrında keçirilən Dünya Azərbaycanlılarının I Qurultayına da qatılmış, burada Ermənistan məsələsi ilə bağlı məruzə ilə çıxış etmişdir.

2006-cı ilin mart ayının 13-də Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayında iştirak edən görkəmli alim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Görkəmli alim və tədqiqatçı, Azərbaycanı və türk dünyasını ürəkdən sevən Erik Fayqlın vəfatı xarici ölkələrdəki bütün Azərbaycan icmalarının dərin kədərinə səbəb olmuşdur. Azərbaycan xalqı, o cümlədən xarici ölkələrdə yaşayan bütün həmvətənlərimiz bu böyük insanın xatirəsini daima uca tutacaq, onun xidmətlərini heç zaman unutmayacaqdır.

## Əsgərin arzusu

**Kiçik hekayə**

Ayağının biri sınan göyərçin gəzməkdə çətinlik çəksə də, təhlükə hiss edən kimi uçdu.

Bu mənzərəni uzaqdan seyr edən və Vətən uğrunda döyüşlərdə ayağının birini itirən əsgər isə ona baxıb sakitcə dilləndi:

-Kaş, mənim də qanadlarım olaydı...

## Keçmiş məhkumun "işi"



Abşeron Rayon Polis İdarəsinin İstintaq şöbəsi əməkdaşları tərəfindən müxtəlif vaxtlarda rayon ərazisində oğurluq əməlləri törədərək vətəndaşlara maddi ziyan vuran şəxs saxlanılıb.

**RPİ İstintaq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Vilayət Kazımovun** sözlərinə görə, təqsirləndirilən şəxs toplanmış materiallar əsasında cinayət məsuliyyətinə cəlb olunub və vətəndaşlara dəymiş maddi ziyanın bir hissəsinin ödətdirilməsi təmin edilib.

Faktla bağlı zəruri istintaq tədbirlərini həyata keçirən İŞ-nin baş müstəntiqi, polis mayoru Eldəniz Əsgərov bildirdi ki, Bakı şəhər sakini, əvvəllər anoloji əməllərə görə məhkum olunmuş Aqşin Rəsulov iş axtarmaq məqsədilə Qobu qəsəbəsinə gəlib. Bir qədər dolaşdıqdan sonra gözü qəsəbədəki evlərdən birinə sataşıb. Mənzildə heç kəsin olmadığını fürsət bilən Aqşin hasardan aşaraq evin pəncərəsini mismarla açıb. Paltar dolabından qızıl qolbaq, saat və 200 manat oğurlayıb. Tamahına güc gələ bilməyən A.Rəsulov yenidən özgənin əmlakını gizli talama məqsədilə qəsəbəyə qayıdıb. Vətəndaş C. Feyzullayevaya məxsus evdən 150 manat, habelə 980 manat dəyərində qızıl-zinət əşyaları oğurlayaraq, ümumilikdə, zərərçəkmişə 1130 manat maddi ziyan vurub. Ancaq asayiş keşikçilərinin ayıq-sayıqlığı və operativliyi sayəsində o, "isti izlər"lə yaxalanıb. Onu bu əməllərə sövq edən isə narkotik aludəçiliyi olub.

***Teymur Əlizadə,***
***polis kapitanı***



## "Xəzri" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan"Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşları üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |



**Yasamal RPİ-nin 27-ci Polis Bölməsinə** müraciət edən Bakı şəhər sakini A.Ələkbərov rayon ərazisində bir nəfərin onu döyüb bıçaqla hədələyərək 235 manat dəyərində qol saatını və cibində bank kartı olan gödəkçəsini aldığını bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Sumqayıt şəhər sakini Q.Məmmədov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Binəqədi RPİ 43-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 19-da Binəqədi qəsəbəsi ərazisində Bakı şəhər sakini E.Ələkbərovu bıçaqla hədələyib 300 manat dəyərində mobil telefonunu, içərisində pul, şəxsiyyət vəsiqəsi və bank kartları olan pulqabısını, həmçinin içərisində 80 manat dəyərində geyim əşyaları olan çantasını quldurluq yolu ilə almaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş İ.Rəhimov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nərimanov RPİ 18-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 22-də paytaxt sakini İ.Nəsirovun 2400 manat dəyərində mopedini oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini H.Həsənov saxlanılmışdır.

◆◆◆

**Yasamal RPİ 28-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri K.Həsənovun mobil telefonunu dələduzluq yolu ilə almaqda, P.Hacıyevin isə cibindən içərisində 4700 manat olan pulqabısını oğurlamaqda şübhəli bilinən Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş E.Əmirov saxlanılmışdır.

## Oktyabr ayının 28-dən noyabrın 3-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 192 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 57 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 151, o cümlədən borclu şəxs qismində axtarışda olan 75 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 9 nəfər ölmüş, 12 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 115 fakt müəyyən edilmişdir.

## Maraq dünyası



*AVTOBUS-EV*

ABŞ-ın "Winnebago" şirkətinin istehsal etdiyi "Horizon" adlı avtobus-ev rahatlığı və unikal layihəsi ilə seçilir.

Uzaq məsafələrə gəzinti üçün də nəzərdə tutulmuş avtobusda əsl ev mühiti yaradılıb. Avtobusda bütün zəruri avadanlığı olan mətbəx, hamam, qonaq və yataq otaqları yerləşdirilib.

Antena sistemi, əyləncə mərkəzi sahibini və qonaqlarını yolboyu darıxmağa qoymayacaq.

Avtobus-evin qiyməti isə 435 min dollardır.

*KONTEYNER OTEL*

ABŞ-ın Kaliforniya ştatında 58 hektar üzümlük sahəsində tikilən otel ekzotika həvəskarları üçün gözəl məkana çevrilib. Otel nömrələri xüsusi dizaynlı 20 dəniz konteynerindən ibarətdir.

"Geneseo Inn" adlanan mehmanxana kompleksində komfortlu nömrələr, istirahət zonası, qonaq evi və ofis fəaliyyət göstərir. Otelin enerji təchizatı damlar üzərində quraşdırılmış günəş batareyaları vasitəsilə həyata keçirilir. Kompleksin inşasında əsasən təbii materiallardan istifadə edilib.

Otelin hər nömrəsində 3 yataq, 2 vanna, qonaq otağı və mətbəx var.

*QƏRİBƏ ÇİNLİ*



Çinin Quandun əyalətində avtomobil şosesinin 2 xəttinin arasında yerləşən 40 kvadratmetrlik "cırtdan" ev heç vaxt turistlərdən əskik olmur.

Evin sahibi olan qadın digər mənzilə köçməkdən qəti imtina edir, halbuki avtomagistral tikilərkən burada yaşayan 47 ev sahibinə digər ərazilərdən mənzil verilməklə yanaşı, kompensasiya da ödənilib.

Maraqlıdır ki, ev sahibinə yerli hökumət kompensasiya olaraq 2 mənzil və 186 min dollar təklif etsələr də, qadın buna razı olmayıb. O, yalnız 4 mənzil və 287 min dollara evi boşaltmağa razılıq verəcəyini bildirib.

Hazırda öz evində qalan çinli magistralboyu şütüyən avtomobillərin səs-küyünə və qeyri-adi mənzərəyə baxmağa gələn turistlərə dözməyə məcburdur.

***Ruhiyyə Əliyeva***

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik